# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№378/6** **13 avqust 2025-ci il**

## Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sistemi barədə

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.5-ci “Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sisteminin yaradılması və tətbiqi” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən təqdim olunmuş “Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sistemi”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, iki ay müddətində “Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sistemi” rəyçilərin və Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla yenidən işlənib təqdim edilsin.

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli, A.Bayramova) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki:

2.1. “Auditorlar arasında etik qaydalara əməl edilməməsi ilə bağlı monitorinq sistemi”nə uyğun olaraq hər rüb monitorinqlərin həyata keçirilməsi təmin edilsin;

2.2. monitorinqlərin nəticəsində aşkar olunmuş etik pozuntuya yol verən auditor təşkilatları və sərbəst auditorlar barəsində müvafiq qaydada intizam və tənbeh tədbirləri görülməsi məqsədilə monitorinq bitdikdən sonra iki həftə müddətində təkliflər hazırlanaraq Palatanın rəhbərliyinə təqdim edilsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**